# RƏSMİ-İNZİBATİ ÜSLUB TERMİNLƏRİNİN YARANMA YOLLARI HAQQINDA
## (semantik və morfoloji üsul)

**Z.B.CƏFƏROVA**
*Bakı Dövlət Universiteti*

Rəsmi-inzibati üslubun terminləri də digər sahə terminləri kimi iki yolla yaranır.

1.Azərbaycan dilinin daxili imkanları hesabına;

2.Alınmalar hesabına;

Ümumilikdə götürüldükdə, dilin terminoloji leksikasının genetik xüsusiyyətləri iki cəhətdən öyrənilə bilər. "Birinci halda terminoloji leksikanı təşkil edən sözlərin ümumi genetik mənzərəsi verilməklə həmin sözlərin dilə haradan daxil olması məsələsi araşdırılmalıdır. İkinci halda sözlərin mənşəyi əsas götürülməklə əslində alınma sözlər geneoloji baxımdan təsnif edilməlidir. Məsələnin bu şəkildə qoyulması daha optimal sayılsa da, qeyd etmək lazımdır ki, ikinci istiqamətdə tədqiqat birincinin davamıdır. Bu halda alınma terminlərin geneoloji təsnifatını vermək olur" (3, s.11). Göründüyü kimi, terminlərin mənşəyi dedikdə, ilk növbədə alınmalar yada düşür. Dilin öz daxili imkanları hesabına yaranan terminlərin bu statusu ümumişlək sözə çevrilmələri sayəsində ikinci plana keçir. Dilçilik ədəbiyyatında terminlər ilk növbədə internasional sözlərlə bağlanır. Demək lazımdır ki, internasional sözlərin də ilkin mənşəyi var və bu sözlərin dilə keçməsində üçüncü bir dil vasitəçi olur.

Termin yaradıcılığı üçün Azərbaycan dili zəngin imkanlara malikdir. Dilimizin daxili imkanları, lüğət tərkibi əsasında yüzlərlə termin yaradılmışdır. Terminoloji sistemin zənginliyi dilin daxili imkanları hesabına təmin edildikdə həmin dilin tarixiliyini bir daha sübut edir. "Əgər bu və ya digər xalqda hər hansı bir elm sahəsinin inkişaf tarixi qədimdirsə, həmin elmin inkişaf səviyyəsini əks etdirən terminlərin çoxu o xalqın öz dilinin sözlərindən ibarət olur" (7, s.65).

Bu sözləri tərəddüd etmədən rəsmi üsluba da şamil etmək olar. Hazırda Azərbaycan dövlətçiliyi ilə yanaşı, onun elmi də sürətlə inkişaf edir. XVI əsrdə təşəkkül tapan, kökləri isə qədim dövrlərədək gedən rəsmi üslub XVIII-XIX əsrlərdə tədricən təkmilləşərək, XX əsrdə özünün yüksək səviyyəsinə çatdı. XX əsrin sonlarından isə rəsmi üslub yeni mərhələyə qədəm qoydu. Bu inkişaf prosesində terminoloji sistemin özünəməxsus yeri var. Üslubun indiyə qədər qeyri-milli olması inkaredilməzdir və bu keyfiyyət ilk növbədə, terminlərin alınmalığı ilə qazanılırdı. Üslubun məzmunca və formaca milliləşməsi üçün dilin daxili imkanları hesabına termin yaratmaq aktual linqvistik problemə çevrilir.

Uzun illər dilçilikdə belə bir fikir formalaşmışdı ki, milli dildə termin yaratmaq başqa dillərə, xüsusən, rus-Avropa dillərinə məxsus ayrı-ayrı terminlərin ana dilli qarşılığının müəyyənləşdirilməsindən başqa bir şey deyildir. Azərbaycan dili terminologiyasının əsaslarını müəyyənləşdirən, bu dil vahidlərini xırda təfərrüatına qədər təhlil edən M.Qasımov bu yanlış fikrin qanunauyğun nəticəsini aşağıdakı kimi şərh edir: "Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də terminologiya fondunun zənginləşdirilməsi və təkmilləşdirilməsi üçün ən əlverişli yol bu dilin öz lüğət tərkibi, öz daxili imkanları əsasında terminlər yaradılmasıdır. Məlumdur ki, terminləri başqa dillərdən götürərkən bilavasitə onların mənsub olduqları dilin semantik xüsusiyyətlərini və tələffüz qaydalarını öyrənmək lazım gəlir. Həmin alınma terminlərin şəkilçi hissələrinin ana dilinə uyğunlaşdırılması zərurəti qarşıya çıxır. Halbuki, ana dilinin lüğət tərkibi əsasında terminlər yaratmaq üçün yalnız mövcud söz yaradıcılığı modellərindən istifadə etmək kifayətdir. Ona görə də elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Asan yolla getmək, "bu söz bizdə yoxdur" deyə tələsik hökm vermək düzgün deyildir... Belə bir yanlış təsəvvür nəticəsində indiyədək terminoloji lüğətlərdə ciddi nöqsanlara yol verilmişdir. Əslində isə terminlər yaradılması hər bir dilin özünəməxsus olan müstəqil söz yaradıcılığı prosesidir" (4, s.114-115). Prof. Ə.Dəmirçizadənin mövqeyi də professor M.Qasımovun mövqeyi ilə üst-üstə düşür: "Dilin öz lüğət ehtiyatından alınıb terminə çevrilmiş sözlərin həmin dildə müxtəlif məqamlarda işlənilmə imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan belə sözlərin məqsədəuyğunluq əsasında termin kimi, ya ümumişlək bir söz kimi işlədilməsinə ehtiyatla yanaşmaq və sözü işlədərkən bütün bu incəlikləri nəzərə almaq zəruridir (1, s.80). Termin yaradıcılığının özünəməxsus cəhətləri, Ə.Dəmirçizadənin göstərdiyi incəliklərin meydana çıxması terminin həm anlayışlar, həm də dilin leksik sistemi ilə bağlılığındadır, başqa sözlə, terminin definitivlik və nominativlik kəsb etməsindədir. "Yeni terminin yaranması həm loqosla, həm də leksislə təyin olunur. Bu və ya digər terminə tələbat və onun ümumi tipi "loqos"la, yəni elmi biliyin inkişafı ilə motivləşir, onun konkret zahiri quruluşu isə daha çox leksislə, daha doğrusu dilin leksik sistemi və yalnız bundan sonra verilmiş terminoloji sistem və onun terminoloji uzusu ilə müəyyənləşir" (8, s.193). Terminin yaradılması zərurəti anlayışın meydana çıxması ilə şərtlənir. Termin söz yaradıcılığı prosesinin bir növü olsa da, bir sıra cəhətlərinə görə ondan fərqlənir. Belə ki, yeni yaranmış anlayış müəyyən anlayışlar sisteminə daxil olur və həmin sistemdə öz yerini tutur. Buradan da terminin sistemliliyi tələbinin nəzərə alınması qarşıya çıxır. Terminə verilən sistematiklik tələbi ilə əlaqədar olaraq birinci növbədə terminin tərkib hissələri və elementləri ilə əks olunan əlamətlərin ardıcıllıqla seçilməsinə diqqət yetirilməlidir. Əlamətlərin ardıcıllıqla seçilməsi termin yaradıcılığına qoyulan məhdudiyyət şərtlərindən biridir. Söz yaradıcılığında isə belə məhdudiyyət olmadığı üçün mümkün vasitələrdən hər hansı birinin istifadə edilməsi mübahisə doğurmur. Ədəbi dildəki sözlərdə ayrı-ayrı elementlərdən düzgün istifadə olunmaması, həmin elementlərin ardıcıl yerləşdirilməməsi hallarına, qrammatik normaların pozulmasına tez-tez rast gəlmək olur. Məsələn,

dilin qrammatikasına uyğun olaraq söz yaradıcılığı aşağıdakı ardıcıllıqla gedir: sözün kökü+leksik şəkilçi. Əgər söz iki və daha artıq leksik şəkilçi qəbul edərsə bu ardıcıllıq müvafiq olaraq davam etdirilir. Bəzən isə alınma leksik şəkilçilər bu ardıcıllığı əks istiqamətdə müəyyənləşdirir: leksik şəkilçi+söz (yaxud sözün kökü). Bir qayda olaraq qrammatik şəkilçi leksik şəkilçidən sonra gəlir, sözdüzəldici şəkilçi sözün başlanğıc formasına qoşulur. Lakin bu ardıcıllıq hər zaman gözlənilmir. Məsələn, yol qırağındakı, evin arxasındakı, stolun üstündəki söz birləşmələrinin ikinci tərəflərindəki düzəltmə sözlərdə leksik şəkilçi sözün kökünə deyil, qrammatik şəkilçiyə (mənsubiyyət şəkilçisinə) qoşulub. Dilimizdə belə sözlərin sayı kifayət qədərdir və artıq normal hal kimi fəaliyyət göstərir. Belə sözlərdə söz yaradıcılığında iştirak edən elementlərin ardıcıl yerləşdirilməməsi məzmunda çatışmazlıq yaratmır. Yaxud leksik şəkilçilərin mənaca qruplaşdırılmasındakı istisnalar, morfoloji uyğunsuzluqlar, eynicinsli anlayış və ifadələrin müxtəlif quruluşlarda olması sistemliliyin söz yaradıcılığında pozulmasını göstərir. Terminlərdə isə sistematikliyin, onun anlayışlar sisteminə daxil olması üçün definitivliklə bərabər, elementlərinin sırası, onların düzgün ardıcıllıqla yerləşdirilməsi böyük əhəmiyyətə malikdir. Sistemlilik tələbi cəhətindən eynicinsli anlayışlar eyni quruluşa malik terminlərlə ifadə olunmalıdır.

Azərbaycan dilinin qrammatikası və digər linqvistik baza ana dilində yeni terminlərin yaranması üçün dünya dillərində olan üsulları əhatə etməyə imkan verir. Azərbaycan dilində yeni terminlərin yaranması üçün M.Qasımov aşağıdakı üsulları göstərir:

"1. Semantik üsul;
2. Morfoloji üsul;
3. Sintaktik üsul;
4. Kalka üsulu;
5. Sözlərin ixtisarı və qısaldılması üsulu (abreviatura)" (4, s.122).

Bu üsulların hər biri rəsmi-inzibati üslubdakı terminlərin yaradılmasında müxtəlif məhsuldarlıqla özünü göstərir. Lakin məqalənin həcmini nəzərə alaraq burada yalnız semantik və morfoloji üsulla terminlərin yaradılması prosesindən bəhs edilir.

Semantik üsul termin yaradıcılığının ən məhsuldar növüdür. Bu üsulun özəyində polisemiya durur. Dildə iki və daha artıq anlayışın ifadəsinə xidmət edən terminlərin olması qarşılıqlı anlaşmanı pozsa da, "...sözlərin mənasını dəyişərək onları ictimai-siyasi terminlərə çevirmək yeni yaranan, inkişaf edən anlayışlar üçün ifadə vasitəsi müəyyənləşdirməyin ən məhsuldar üsullarından biridir" (4, s.122). Semantik üsulla termin yaradıcılığı müəyyən tarixə malikdir. Bu üsuldan termin yaradıcılığının ilkin mərhələlərində istifadə edilsə də, o, aktuallığını bu gün də itirməmişdir, əksinə müasir dövr terminləşmə prosesində millilik baxımından daha da fəallaşmışdır.

"Yüksək abstraksiyanın nəticəsi olan və dilin bütün məna vahidləri arasında müşahidə olunan polisemiya hadisəsinin linqvistik əsasını böyük Sössürün konsepsiyasındakı "işarənin ixtiyariliyi" müddəası ilə müəyyənləşdirmək olar... İxtiyarilik terminini bir qədər də dəqiqləşdirən müəllif qeyd edir ki, bu heç də o demək deyildir ki, danışan sərbəst surətdə istədiyi işarəni müəyyən denotatı ifadə etmək üçün istifadə edə bilər. Biz onu demək istəyirik ki, göstərən müvafiq göstərilənlə münasibətdə ixtiyaridir, daha doğrusu, göstərən motivlənməyib, onun göstəri-

lənlə heç bir təbii əlaqəsi yoxdur... Doğrudan da, müəyyən fonetiк formanın dəyişməzliyi (bu mənada ixtiyariliк) müxtəlif məfhumların ifadəsinə imкan verir və sözün (işarənin) iкinci tərəfini təşкil edən, bütün dillər üçün ümumi olan məfhumun qeyri-ixtiyariliyi müxtəlif dillər arasında tərcüməyə imкan verir (6, s.56). İctimai-siyasi terminlərin ümumxalq dili əsasında semantiк üsuldan istifadə ilə yaradılması prosesi də obyeкtiv aləmdəкi varlıqların mövcud əlamətlərə görə ümumiliyinə söyкənir. Deməli, sözün bu əlamətə əsaslanaraq mənaca genişlənməsinin əsas səbəbi cəmiyyətdəкi dəyişiкliкlər və yeniliкlərlə bağlıdır. Elmi-texniкi кəşfin müxtəlifliyi, cəmiyyətdəкi siyasi və iqtisadi dəyişiкliкlər ona görə sözün polisemiyasına təкan verir кi, hər hansı bir dilin təbii imкanları məhduddur. Bu barədə A.Qurbanovun fiкri ilə razılaşmamaq olmur: "Dünyada hər bir anlayışı ayrı-ayrı xüsusi sözlərlə ifadə edən heç bir dil yoxdur və ola da bilməz. İnкişafla əlaqədar olaraq meydana çıxan yeni-yeni anlayışların ifadəsi üçün çox zaman yeni söz axtarılmayıb, dildəкi mövcud sözün mənası dəyişdirilməкlə bu və ya başqa məfhum ifadə olunur (5, s.389).

Rəsmi üslub üzrə terminlərin semantiк üsulla yaradılmasında iкi hal özünü göstərir.

1.Ümumişləк sözlərin terminləşməsi;

2.Termin sözlərin mənalarının xüsusiləşməsi.

Birinci hal terminləşmə də adlandırıla bilər. Bu halda dilin lüğət tərкibindəкi uyğun ifadələr hazır vahidlər кimi istifadə edilir. Laкin bu heç də o deməк deyildir кi, dildəкi bütün sözlər terminləşmə üçün yararlıdır. Hazır vahid кimi seçilən sözün terminə xas əsas xüsusiyyətləri özündə əxz etməsi vacibdir. Bunlar aşağıdaкılardır:

"1. Termin dəqiq olmalı, nəzərdə tutulan anlayışın əsas mahiyyətini ifadə etməlidir;

2. Termin qısa və aydın olmalıdır;

3. Termin müəyyən sistemləşdirici rol oynamalıdır" (4, s.23-24).

Terminin dəqiq olması anlayışını düzgün təyin etməк üçün, onun ifadə etdiyi anlayışın anlayışlar sistemindəкi yerini dəqiqləşdirməкdən ötrüdürsə, qısalığı onun asan mənimsənilməsi və yadda yaxşı qalması üçündür. Terminin qısa və əlverişli formalarının yaradılması üçün M.Qasımov müxtəlif priyomların mövcudluğunu göstərir:

"1.Terminin bəzi elementlərinin buraxılması;

2.Terminin bəzi elementlərinin başqa elementlərlə əvəz edilməsi;

3.Termini təşкil edən ayrı-ayrı sözlərin, söz hissələrinin, ön şəкilçilərin və şəкilçilərin əvəz edilməsi;

4.Bir sintaкtiк quruluşun başqa sintaкtiк quruluşla əvəz edilməsi;

5.Abreviatur terminlərin yaradılması" (4, s.26).

Terminin sistemliliyi isə iкi sahəni – terminoloji sistemi və dil sistemini əhatə etməкlə, özündə əкs etdirdiyi əlamətlərin ardıcıllıqla seçilməsini təmin etməlidir.

Birinci halda, yəni terminləşmə prosesində hazır termin кimi seçilən söz əsasən, ictimai-siyasi məzmun кəsb edən ifadələr sırasından alınır. Əslində dilin lüğət tərкibinə də həmin termin müəyyən sahədən кeçir. Məsələn, "iqtidar" sözü bacarıq, edə bilməк mənasından daha geniş bir mənaya кeçmişdir, haкimiyyət, qüdrət anlayışını ifadə edən rəsmi üslub termininə çevrilmişdir. Bəzən isə mənasını genişləndirən bu tipli sözlərin polisemiyası üçün müəyyən sintaкtiк struкtur tələb edilir və o,

terminin elementlərindən birinə çevrilir. Məsələn, “icra” sözü ayrılıqda yerinə yetirmə, həyata keçirmə, ifa etmə mənalarını bildirir, hakimiyyət sözü ilə birləşdikdə isə rəsmi dövlət strukturu anlayışını ifadə edən terminə çevrilir. “Yerli” sözündə də belə hal müşahidə edilir, o, məna genişlənməsi ilə “yerli təşkilatlar”, “yerli orqanlar” termininin elementi kimi çıxış edir.

Semantik üsulla termin yaradıcılığının ikinci forması, termin sözlərinin mənalarının xüsusiləşməsi bəzi tədqiqatçılar tərəfindən transterminləşmə adlandırılır. “Transterminləşmə bir sahə terminologiyasına məxsus terminin tam və ya qismən dəyişdirilərək başqa sahədə işlədilməsini əhatə edir. Transterminləşmə elmlərin inteqrasiya və diferensiasiya prosesindən asılı olmaqla yanaşı, terminoloji, yaxud başqa cəhətdən sem uyğunluğunun nəticəsi kimi təzahür edə bilər. Beləliklə, təsnifatın bu qolu birinci əsas xətlə məhdudlaşır. Transterminləşmə üsulu ilə yaranmış terminlərə aid misallar əsasında aparılan təhlil göstərir ki, terminin konversiyasının başlıca prinsipi müəyyən əlamətə görə oxşarlığa istinad olunmadır. Köçürməyə imkan yaradan oxşarlıqları üç əsas qrupa ayırmaq mümkündür: 1) texniki oxşarlıq; 2) zahiri oxşarlıq; 3) funksional oxşarlıq (3, s.21). M.İsmayılovanın təsnifatına daxil olan qruplar dilin bütün sahə terminləri üçündür.

Semantik üsulla termin yaratmaq bu dil vahidlərinin çoxmənalılığına, omonimliyinə gətirib çıxarır. Göstərmək lazımdır ki, termin üçün əsas şərtlərdən olan, onu digər leksik vahidlərdən ayıran təkmənalılıq prinsipini pozsa da, bu üsul müasir termin yaradıcılığının fəal vasitələrindən olmaqda davam edir.

Dilin daxili imkanları hesabına termin yaradıcılığının ikinci yolu – morfoloji üsul dilimizdə sözdüzəldici şəkilçilərin zənginliyinə görə ən aktiv terminyaratma üsulu sayılır.

Məlumdur ki, hər bir nitq hissəsinin özünəməxsus sözdüzəldici şəkilçiləri var və onlar semantik baxımdan təsnif edilirlər. Məsələn, isimdən isim düzəldən dördvariantlı “çı” şəkilçisi “peşə, sənət, məşğələ, adət, xasiyyət, əqidə, meyl (təmayül), hal-vəziyyət, keyfiyyət və s. mənaları ifadə edən düzəltmə isimlər əmələ gətirir” (2, s.29). Bu şəkilçi termin yaradıcılığında da öz semantikasına sadiq qalmışdır. Belə ki, o, rəsmi üslubun termin yaradıcılığında sənət, peşə, məşğuliyyətlə bağlı ifadələr yaratmışdır: siyasətçi, təbliğatçı, mülkiyyətçi (sifət məqamında işlənir). Verəcəyimiz digər nümunələrdə də bu hal müşahidə edilir.

Morfoloji üsulla termin yaradıcılığı ilk növbədə ona görə uğur qazanır ki, o, dilin milliliyinə xidmət edir. Bu, elmin, cəmiyyətin inkişafı ilə əlaqədar yaranmış anlayışların yeni terminlərlə ifadə edilməsi üçün alınma termin əvəzinə, Azərbaycan dilinin öz qrammatik qanunları əsasında yeni vahidlərin düzəldilməsi meylindən doğur.

Rəsmi üslubda termin yaranmasında iştirak edən şəkilçilərdən aşağıdakıları göstərmək olar.

-çı, çi, çu, çü – işçi, siyasətçi, islahatçı, hərbçi, millətçi və s. Bu şəkilçi rəsmi-üslub termin yaradıcılığında digər şəkilçilərlə müqayisədə o qədər də məhsuldar deyil.

-lıq, lik, luq, lük- Qrammatikada olduğu kimi, rəsmi üslubun termin yaradıcılığında da fəal iştirak edir. Bu şəkilçi də semantik ənənəsini davam etdirir, mücərrəd anlayışları, peşə, sənət, vəzifə, yer məzmunu ifadə edən terminlər yaradır: durğunluq, birlik, həmrəylik, qanunçu-

luq, bərabərlik, dövlətçilik, təşkilatçılıq, azadlıq, suverenlik, məşğulluq, mühafizəkarlıq, siyasətçilik, sahibkarlıq, işsizlik, millətçilik, liderlik, öndərlik, zorakılıq və s.

-lı, li, lu, lü- Bu şəkilçinin vasitəsilə düzələn leksik vahidlər əsasən, konversiya yolu ilə terminoloji status alan ifadələrdir və işlənmə məhsuldarlığı o qədər də yüksək deyil: yadelli, ziyalı, seçkili, növbəli və s.

-ıq, ik, uq, ük – qeyri-məhsuldar olan bu şəkilçilər əsasən feldən düzələn mücərrəd anlayışları ifadə edir: barışıq, danışıq, tapşırıq və s.

-ış, iş, uş, üş – işlək şəkilçidir, qurtuluş, bildiriş, göstəriş, çağırış, çıxarış, çevriliş, quruluş, dönüş, dirçəliş və s.

-laşma, ləşmə. Əsasən isimlərə və sifətlərə əlavə olunur, ədəbi dilimizdə işlənən Azərbaycan, ərəb-fars mənşəli sözlərlə yanaşı, Avropa mənşəlilərə də qoşulur: özəlləşmə, aktivləşmə, ixtisaslaşma, fəallaşma və s.

-qı, ki, qu, kü, gi, ğu. Bu şəkilçilərin işlənmə tezliyi orta səviyyədədir: seçki, alqı, vergi, sorğu, satqı və s.

-qın, ğın, kün, gin. Hadisə və vəziyyət bildirən terminlər yaradır: qaçqın, basqın, qırğın, köçkün, didərgin və s.

-ləş+dir+mə. Əsasən proses bildirir. Belə terminlərdə üç mərhələli şəkilçiləşmə gedir: özəlləşdirmə, sənayeləşdirmə, səmərələşdirmə və s.

-dar. Mənsubluq və vəzifə bildirən terminlər yaradır: icarədar, səhmdar, mülkədar və s.

-kar. Peşə, sənət bildirən terminlər yaradır: sahibkar.

-daş. İnsan anlayışı bildirir: vətəndaş, silahdaş, məsləkdaş, əməkdaş və s.

-i/vi. İsim köklərinə artırılan bu şəkilçi o qədər də məhsuldar deyil: qanuni, hüquqi, xarici, inqilabi və s.

-pərvər. Müəyyən keyfiyyət və xarakter bildirən terminlər yaradır: insanpərvər, vətənpərvər, azadpərvər və s.

-iyyat,- iyyət. Əsasən ümumilik və mücərrədlik bildirən terminlər yaradan bu şəkilçi orta tezliklə işlənir: ictimaiyyət, muxtariyyət, kəşfiyyat, əməliyyat, cəmiyyət, cümhuriyyət, mütləqiyyət, şəxsiyyət, hakimiyyət, istiqlaliyyət və s.

-xana. Məkan anlayışlı idarə adı bildirən terminlər yaradır: dəftərxana, gömrükxana və s.

-namə. Bu şəkilçi rəsmi sənəd adı bildirən terminlər yaradır və nisbətən məhsuldardır: vəsiyyətnamə, tələbnamə, xasiyyətnamə, tərifnamə və s.

Bəzən termin yaradıcılığında qrammatik şəkilçilərdən də istifadə edilir. Belə ki, sözün cəm şəkilçisi ilə işlənməsi onun termin səciyyəsi kəsb etməsinə səbəb olur. Ümumişlək söz olan "tərəf" cəm şəkilçisi qəbul etməklə yeni ictimai-siyasi məzmun qazanır və rəsmi üslubda geniş işlədilən termin statusu kəsb edir.

## ƏDƏBİYYAT


1. Dəmirçizadə Ə.N. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, 271 s.
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə, Bakı, Maarif, 1983, 319 s.
3. İsmayılova M.A. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 2001, 53 s.
4. Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm, 1973, 186 s.
5. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1985, 408 s.
6. Məmmədov İ.T. Azərbaycan dili semasiologiyasına giriş. Bakı, 1988, 86 s.

7. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, Elm, 2002, 230 s.
8. Суперенская А.В., Подольская Н.В., Васильева Н.В. Общая терминология. Вопросы теории. Москва, 1989.

## К ВОПРОСУ О ПУТЯХ ПРОИСХОЖДЕНИЯ ТЕРМИНОЛОГИИ ОФИЦИАЛЬНО-ДЕЛОВОГО СТИЛЯ
**(семантический и морфологический стили)**

**З.Б.ДЖАФАРОВА**

**РЕЗЮМЕ**

Термины официально-делового стиля, подобно другим профессиональным терминам, образуются двумя способами:

1) путем использования внутренних возможностей азербайджанского языка;

2) путем заимствования.

Следует отметить, что мнение специалистов, занимающихся данным вопросом, таково, что наиболее целесообразный путь для пополнения и усовершенствования терминологического фонда языка лежит в создании терминов, национальных по содержанию и форме, на основе словарного состава языка, а также его внутренних возможностей.

При создании терминов, выражающих различные профессиональные понятия, необходимо, в первую очередь, обратиться к словарному составу языка и использовать его фонд.

Наряду с этим, в статье говорится о семантических и морфологических стилях создания новых терминов азербайджанского языка.

## TO THE QUESTION OF OFFICIAL AND BUSINESS TERMINOLOGY'S WAYS OF ORIGIN
**(semantical and morphological styles)**

**Z.B.JAFAROVA**

**SUMMARY**

Like another professional terms, the terms of official and business style are formed by means of two ways:

1) through the use of Azeri language's own resources
2) through adoption

According to the most reliable scientific views concerning this subject, the most reasonable way for the terminological fund's fulfillment and improvement is in formation of terms which could be national by its shape and contents on the basis of word structure of the language as well as on the basis of its inner resources.

One should appeal to the language's structure and use of it's fund when he creates the terms expressing different professional notions.

This article also deals with semantical and morphological styles of Azeri language's new terms' formation.